Çingiz Abdullayev

# Alman sahibkarlarının Azərbaycan memarlığının inkişafında rolu

***Məlum olduğu kimi Almaniya, 1921-ci ildə Kayzer dövləti oldu. Bu zaman Almaniya qüdrətli iqtisadiyyata malik idi və dünyanın başqa dövlətləri ilə sıx əlaqə saxlamaq istəyirdi. Bu zaman məşhur Simens firması Azərbaycanın Gədəbəy rayonundakı mis mədənin sahibi oldu. Bu dövrdə Gədəbəy mis mədəni ölkədə istehsal olunan misin 70% -ni verirdi. Gədəbəydə eyni zamanda misəritmə zavodu da tikilir. Bu zavodun filialı isə Gədəbəyin yaxınlığında Qalakənddə salınmışdı. Azərbaycanda yeganə zavod olan bu misəritmə zavodu Rusiyada da tanınırdı. Misdən başqa burada qızıl da çıxarılırdı.***

Burada qızıl mislə əridilərək Mısır adı ilə Almaniyaya göndərilirdi... Bu kiçik ərazidə o zaman 300-ə qədər alman ailəsi yaşayırdı. Onlar burada mədənlərdə və misəritmə zavodunda çalışırdılar. Bu zaman artıq alman dili Azərbaycan diliylə birlikdə Simens qardaşlarının zavod və mədənlərində işçi dili hesab olunurdu. Gədəbəy arxivində alman dilində saxlanan xeyli sənədlər də bunu sübut edir.

Gədəbəy misəritmə zavodunun arxiv fondunda bu müəssisənin ötən əsrin 60-cı illərindən 1916-cı ilə qədərki fəaliyyəti barədə alman dilində aparılmış yazışmalar saxlanılır. Muzeyin eksponatları arasında mədən fəhlələrinin işlətdikləri çıraqlar, iş alətləri, fotoşəkillər, Simenslər sülaləsini təmsil edən sənədlər, Gədəbəy mədənlərinin sxemləri vardır. Burada maraqlı bir əşyayi-dəlil də şərab daşınması üçün palıddan gözəl bir çəlləkdir. Ancaq əslində bu çəllək gizli saxlanc rolunu oynayıb, belə ki, onun aşağı hissəsi qiymətli əşyalar və qızıl kərpicləri ölkədən çıxarmaq üçün nəzərdə tutulub, üst hissəyə isə qum tökülür və beləliklə, şərab çəlləyi təsəvvürü yaradılırdı. Simens qardaşları quberniya paytaxtı Gəncədən 43 kilometrlikdə Daşkəsən dəmir mədənlərə də sahib idilər.

Azərbaycanda kapitalizmin inkişafı, Bakıda neft sənayesinin coşqun yüksəlişi alman mənşəli insanların buraya axını ilə nəticələnmişdi. Almaniyanın özündən, Volqaboyu rayonlardan, mərkəzi Rusiyadan almanlar koloniyalar şəklində buraya gəlirdilər. Bundan başqa orduda, dövlət müəssisələrində ruslaşmış almanlar da üstünlük təşkil edirdilər.

Bakıda intensiv inşaat işləri XIX əsrin ikinci yarısı - XX əsrin əvvəlinə təsadüf etmişdi. Bir qayda olaraq klassik formalarda tikilmiş ikimərtəbəli evlərin arxitekturası şəhərin tanınmış memarı, alman mənşəli İ.Edelin yaradıcılığında mühüm yer tuturdu. Onun yaratdığı təxəyyül Bakının küçələrini bəzəyən onlarla binada təzahür tapmışdı, onlardan 11-i dövlət nəzarətinə tövsiyə olunan arxitektura nümunələri siyahısına salınmışdı. Şərq üslubundan geniş istifadə olunması yaşayış binaları tikililərinin layihələşdirilməsində, həmçinin İ.Edel və A.Eyxlerin yaradıcılığında mühüm yer tuturdu.

Həmin dövrdə yaradıcılıq taleyi Bakı ilə bağlı olan alman arxitektorları arasında A.Eyxler də vardı. O, uşaqlara məktəblər, əhaliyə yaşayış binaları, müsəlmanlara Haşımov məscidi, həmvətənlərinə isə kirxanı tikməklə özü haqda xoş xatirələr buraxmışdı. Eyxlerin tikdiyi bütün mülki və mədəni binalar fərdiliyi ilə seçilir. Böyük erudisiya və yüksək peşəkarlıq Eyxlerə imkan vermişdi ki, kirxanın memarlığını alman qotikasının ən yaxşı ənənələri üzrə işləsin.

Memar A.V. Eyxlerin layihəsi əsasında Bakıda alman kilsəsi və çoxlu yaşayış evləri tikilib. Memar İ.V. Edel Bakıda 8 yaşayış evi, mühəndis F. A. Lemkul məşhur Aşurov və Əliyev hamamlarını tikir. 1918-ci ilin sentyabrında Bakıda universitet açılır və burada 6 alman müəllimi fəaliyyətə başlayır. Azərbaycanlılar, ruslar və başqa millətlərin nümayəndələrilə yanaşı alman tələbələri də universitetin tarix-filologiya, tibb və digər fakültələrində təhsil almağa başlayırlar. 1934-cü ildə müxtəlif məktəblərdə 80% alman uşaqları alman dilində oxuyurdular.

Sovet hakimiyyətinin ilk illərində bolşeviklər də azlıqda olan millətlərin mədəniyyətinin inkişafına böyük fikir verirdilər. Telefon küçəsindəki kilsədə alman klubu fəaliyyət göstərirdi. Onlar burada alman diliylə bərabər Azərbaycan dilini də öyrənirdilər. Lakin sonralar hər şey tədricən dəyişməyə başladı. Alman əhalisi Bakıda 2 hissəyə bölündü: zəhmətkeşlər və zadəganlar. Hökumətin fikrincə, zadəganlar klub və s. işlərə mane olurdular. Ona görə də Azərbaycan Kommunist Partiyası zəhmətkeşləri zadəganların təsirindən xilas etməyi qərara aldı. Əslində isə bu tamam başqa məqsəd güdürdü. Alman fəhlə və qulluqçuları isə bütün xalqlarla yaxınlıq etmək, onlarla dostluq şəraitində yaşamaq istəyirdilər. Almanlardan bir çoxu mərkəzi aparatlarda işləyirdi. Məsələn, F. F. Zeyts, S. Y. Georgenberger, B. V. Kraytsenger müxtəlif vəzifələrdə çalışırdılar.

Almanların Azərbaycandakı həyat tarixçəsinin xüsusi bir səhifəsini onların şəhərsalmaya verdikləri töhfələr təşkil edir. XIX əsrin 70-ci illərinin sonu Böyük Bakı layihəsinin yaradılması ilə əlamətdar idi və almanlar ona öz uzaq vətənlərində gördükləri üslubu verirdilər. Bakıda, Gəncədə, Yelenendorfda, Gədəbəydə Avropa üslublu tikililər yaranırdı ki, bu da Şərq koloritinə rəngarənglik gətirirdi. Görkəmli arxitektor N.A.fon der Non-

ne Bakının baş planının layihələşdirilməsində müstəsna xidmət göstərmişdi. Bundan başqa o, həm də Çkalov küçəsində (1883-1885) möhtəşəm bir malikanə tikmişdi ki, sovet dövründən üzü bəri orada Azərbaycan Dövlət İncəsənət muzeyi yerləşirdi. Nonnenin sənət əsərləri arasında Qarşılıqlı Kredit Cəmiyyətinin binası (1883), habelə Z.Əhmədbəyov və İ.Qoslavski ilə birlikdə yaradılmış Mixaylov xəstəxanasının binalar kompleksi də (1888-1913) vardı.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Bakının küçələrində uşaqlıqda insanı heyran edən, böyüdükdən sonra həyəcanlandıran binalar tikilirdi. Bu, Azərbaycanın dünya kapitalist əmtəə dövriyyəsinə daxil olduğu bir dövr idi və həmin illərdə Abşeron nefti Bakını Rusiyanın ən iri sənaye mərkəzinə çevirmişdi. Rusiyanın heç bir yaşayış məntəqəsi öz inkişaf templəri ilə əvvəllər az tanınan bu şəhərlə müqayisəyə gəlmirdi. 1910-cu ildə Bakı əhalinin artım tempinə görə Paris, London və Nyu-York kimi iri şəhərləri arxada qoymuşdu. Arxitektorlardan biri yazırdı: Bakı Amerika biçimli şəhər hesab olunur, belə ki, burada inkişafın intensivliyi iri Amerika şəhərlərinin artımını xatırladırr. Bakı 7-millik addımlarla irəliləyirdi. XIX əsrin sonu - XX əsrin əvvəllərində o, Bakı amfiteatrının ətrafları boyunca sıçrayışla böyüyürdü. Şəhərin mərkəzində yerli milyonçuların və varlı tacirlərin sarayları, teatr və klublar, təhsil müəssisələri, passaj və mağazalar, otel və xüsusi banklar yerləşirdi. Neft təşəbbüskar və bəxtəvərləri səxavətlə, özü də nağıllara xas sürətlə mükafatlandırırdı. Hansısa kasıb bir arabaçının həyətində fontan vuran neft onu bircə günün ərzində milyonçuya da olmasa, hər halda müstəqil adama çevirə bilərdi. Fontan insanlara varlanmaq şansı verirdi. Ağıl, əmək, təşəbbüskarlıq və cəsarət isə qara neftin sarı qızıla çevrilməsinə imkan yaradırdı. Artıq qala divarlarının əhatəsi şəhərə darlıq edirdi. Bakı yeni küçələri, evləri ilə genişlənir, böyüyürdü. Qalanın dişvari divarları epoxaları bir-birindən ayırır, kapitalizmlə orta əsrlər arasında sədd çəkirdi. Şəhər tikililərinin Avropa şəhər salması normaları üzrə planlaşdırılmasına ehtiyac vardı. İtaliyadan, Almaniyadan, Polşadan, Rusiyadan tanınmış memarlar Bakıya dəvət olunurdular. Onlardan biri də mənşəcə alman, ixtisasca hərbi mühəndis, xəslətinə görə memar olan polkovnik N.A.fon der Nonne idi.

Müxtəlif dövrlərdə Bakının layihələşdirilməsinin müxtəlif planları mövcud olub. Akademik Şamil Fətullayevin XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda şəhərsalma və arxitektura adlı monoqrafiyasını vərəqləyərkən mən düz 8 belə planın şahidi olsam da, aşağıda anlaşılacağı səbəblərdən yalnız onların biri üzərində dayandım.

1897-ci il martın 4-də Bakı şəhər duması şəhərin baş planının çəkilməsinin polkovnik N.A.fon der Nonneyə tapşırılmasına dair qərar çıxardı. Onun planı şəhərin planauyğun inkişafı üçün yeni bir epoxal sənəd olmaqla yanaşı həm də şəhərin 1878-ci ildən başlanmış coşqun iqtisadi yüksəlişi ilə əlaqədar möhtəşəm inkişafını səciyyələndirirdi.

Bakının mərkəzi hissəsini işgüzar və ictimai mərkəz kimi saxlamaqla birgə fon der Nonne şəhərin dağlıq hissəsini yenidən planlaşdırmağı təklif edirdi. Bu cəhd onun opponentləri tərəfindən tənqidə məruz qalsa da, şəhər rəhbərliyi anlayırdı ki, düz və geniş küçələrin salınması şəhərin simasını yaxşılaşdıracaq, onun ayrı-ayrı hissələri arasında əlaqə və rabitənin yaranmasına xidmət göstərəcəkdir. Fon der Nonnenin təklifi vaxtında verilməmişdi - boşaldılmış sahələrin pulunu ödəməyə boş şəhər büdcəsində vəsait yox idi.

Onun istədiyi bu idi ki, şəhərdə iri meydanlar, geniş bulvarlar salınsın. O, həmçinin şəhər parkının salınmasını da təklif etmişdi, çünki küləyin qaldırdığı toz-torpaq göz çıxaran dəniz şəhərində yaşıllığa ehtiyac böyük idi.

Bakı bir çox memarlar üçün yaradıcılıq imkanı yaratmış bir şəhər idi. Sifarişçilər Bakı memarlarından ötrü xəsislik etmirdilər. Şəhərin arxitektur-planlaşdırma strukturunun formalaşdırılması prosesində azərbaycanlı memarlarla birlikdə alman mənşəli mütəxəssislər də yaxından iştirak edirdilər.

İllər keçdikcə Bakıdakı milli azlıqlarla münasibətdə alman əhalinin sayı artırdı. Belə ki, 22 oktyabr 1917-ci ildə keçirilmiş siyahıya alınmaya əsasən, ümumi sayı 229.638 nəfər olan şəhər əhalisinin 2.777 nəfəri alman idi. 1921-ci ildə Bakının almanmənşəli əhalisi 3 min nəfərədək artmış, 1925-ci ildə 4370 nəfər, yaxud şəhərin, Bakı uyezdinin və mədən-zavod rayonlarının yerli əhalisinin 2,7 faizi qədər olmuşdu. Həmin ildə bütün Azərbaycanda 13 min nəfərdən artıq alman yaşayırdı.

Bu günə qədər də orta əsrlər Bakısı ilə kapitalist Bakısı arasında sədd rolunu oynayan qala divarları unikal bir tarixə malikdir. Onun daha qədim hissəsi XII əsrdə Kəsranilər sülaləsi zamanında tikilmişdi. Bu məlumat qala divarlarının restavrasiya vaxtı üzə çıxmışdır. Buradan üzərində üçaylıq ərəb hürufatı ilə yazılar olan bir daş tapılmışdı. Orada deyilirdi: Bu divarı tikməyi əlahəzrət, müdriklər müdriki, adil hökmdar, hünərvərlər hünərvəri... islamın və müsəlmanların dayağı böyük şirvanşah Əbül-Xoca Mənücehr əmr etmişdirr (1120-1149). Ta XIX əsrin ortalarına qədər şəhər quru tərəfdən ikiqat qala divarları ilə əhatə olunmuşdu və yeraltı qaynaqlar və bulaqlarla asanlıqla doldurula bilərdi.

*Çingiz ABDULLAYEV,*
*texnika elmləri namizədi,*
*Alman - Azərbaycan cəmiyyətinin sədri*

**Ədəbiyyat**

1. Ç.Abdullayev, B.Quliyeva. Almanlar Azərbaycanda. Bakı 1992.
2. N.İbrahimov. Azərbayan tarixinin alman səhifələri. Bakı 1995.
3. Ş.Fətullayev. Şəhərsalma və Azərbaycan memarlığı Leninqrad 1986.